# 2016-cı ilin də əmin - amanlıq gətirməsini arzulayırıq

## QƏDƏMİN UĞURLU, GƏLİŞİN XEYİR-BƏRƏKƏTLİ OLSUN, SÜLH-SORAQLI YENİ İL!

### Tarixə qovuşan 2015-ci ilin yekunlarından da aydın olur ki, son illərdə dünya miqyasında iqtisadi inkişaf baxımından ən sürətlə inkişaf edən ölkə Azərbaycandır

**İnsanlar kimi illərin də alın yazısı, tale qisməti olur. Günlər adlı vərəqlərinə yazılan sevincli, kədərli hadisələr tarixi yaşadaraq salnaməyə çevrilir. Beləcə günlər bir-birini əvəz edir, aylar ötür, il-ilə qovuşur, köhnə il estafeti yenilərə verir. Dünya hadisələrini, hər kəsin ömür payını dəqiqələrində belə yaşadan 365 günü yola salırıq. İstər-istəməz ötənlərə nəzər yetirir, hər kəs sakini olduğu ölkəsində, şəxsi həyatında yaşananları bir daha xatırlayır, ağlı-qaralı rənglərlə ifadə olunan günləri məntiqin düşüncəsi, zamanın tələbinə uyğun tarazlayır.**



Əminliklə demək olar ki, 2015-ci il bütünlükdə Azərbaycan xalqının həyatında əlamətdar hadisələrlə zəngin olub. Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində başa çatmaqda olan ili də siyasi, iqtisadi, sosial sahədə müşahidə olunan uğurlarla yola salırıq. Dünyanı bürüyən iqtisadi və maliyyə böhranının davam etdiyi mürəkkəb şəraitdə belə inkişafını sabit saxlayan Azərbaycan makroiqtisadi dayanıqlığını qorumaqla liderliyini təmin etdi. Son illərdə ÜDM 3 dəfə artan, bazar iqtisadiyyatı yolu ilə inkişafını tənzimləyən ölkəmiz davamlı olaraq aparılan islahatlar, həyata keçirilən regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında qarşıya qoyulan vəzifələrin həlli nəticəsində daha möhtəşəm nailiyyətləri ilə MDB ölkələri arasında fərqləndi. Cari ilin doqquz ayında ÜDM 3,7, sənaye məhsulları istehsalı 2,1, qeyri-neft sənayesi isə 10 faiz artan ölkəmizdə işsizlik və yoxsulluq həddinin 5 faiz səviyyəsinə endirilməsi düşünülmüş siyasətin, aparılan sosial islahatların nəticəsində mümkün olmuşdur.

Dünyanın aparıcı reytinq agentliklərinin qiymətləndirmələri ölkələrin inkişaf indeksinin müəyyənləşdirilməsində ən yaxşı, inanılmış sübutdur. Sabitlik indeksinə görə fərqləndirilən Azərbaycan bu sahədə də ilklər sırasındadır. Son açıqlamalarda da qeyd olunduğu kimi, "Fitch raiting" beynəlxalq agentliyi ölkəmizin reytinqini sabit proqnozlu BBB səviyyəsində təsdiq edib. Dünya İqtisadi Forumu tərəfindən tərtib olunan qlobal rəqabətqabiliyyətli indeks reytinqində Azərbaycan 140 ölkə arasında 40-cı yerdə qərarlaşıb. Beynəlxalq Valyuta Fondu 2015-ci il üçün Azərbaycanın iqtisadi artım proqnozunu 4 faiz yüksəldib. Dünya birjalarında neftin qiymətinin aşağı düşdüyü bir vaxtda Azərbaycanın iqtisadi inkişafının davamlı olması ölkəmizlə bağlı səslənən "Holland sindromu"nun heç bir əsasının olmadığını da təsdiqləyir. Deyilənlər isə iqtisadiyyatın şaxələndirilməsinin düşünülmüş siyasətin nəticəsidir.

2015-ci ilin ictimai-siyasi əhəmiyyəti ilə seçilən mühüm hadisələrinin ən əhəmiyyətlisi 1 noyabrda keçirilən V çağırış Milli Məclisə seçkilərdir. Seçkilərdə iqtidar partiyasının xalq tərəfindən yekdilliklə dəstəklənməsi Prezident, YAP-ın Sədri İlham Əliyevə ümumxalq etimadının, inam və etibarının nəticəsi kimi dəyərləndirildi.

Milli Məclisin ilk iclasında məntiqli çıxışı ilə bu siyasi kampaniyanın ölkəmiz üçün əhəmiyyətini faktlar və arqumentlərlə diqqətə çatdıran Prezident İlham Əliyevin bildirdiyi kimi Azərbaycan demokratiya yolunda növbəti uğurlu addım ataraq beynəlxalq hüquq normalarına, bəşəri dəyərlərə sadiqliyini göstərdi: "Azərbaycanda bütün demokratik təsisatlar uğurla fəaliyyət göstərir, ölkədə bütün azadlıqlar - söz azadlığı, siyasi fəaliyyət azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, vicdan-din azadlığı təmin edilir, bütün azadlıqlar mövcuddur. Bu seçkilərdə əlbəttə ki, bütün bu azadlıqlar bir daha özünü büruzə vermişdir."

Vurğulandığı kimi, son illər ərzində ölkədə gedən quruculuq prosesi də seçkilərin nəticələrinə öz müsbət təsirini göstərmişdir. Ümumxalq rəyinin ifadəsi olan bu seçkilərin nəticəsi məlum həqiqəti bir daha aydınlatdı: Azərbaycan uğurla, sürətlə və hərtərəfli inkişaf edir. Azərbaycan vətəndaşları bu reallıqları yüksək dəyərləndirərək ölkədə aparılan siyasətə bir daha öz münasibətlərini iqtidar-xalq birliyinin təntənəsinə etimad göstərməklə bildirdilər.

Azərbaycanın son illərdəki nailiyyətləri artıq nəinki ölkə daxilində, sərhədlərimizdən kənarda da etiraf edilir. Diplomatiyamızın və düşünülmüş xarici siyasətimizin beynəlxalq səviyyədə dəstəklənməsinin nəticəsidir ki, ölkəmizin dünya birliyində nüfuzu yüksəlir, Azərbaycan etibarlı tərəfdaş kimi tanınır, dostlarımızın, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. 155 səslə BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilən, NATO-nun yüksək səviyyəli konfranslarında iştirak edən Azərbaycanın Meksikada, Türkiyədə keçirilən "Böyük 20-lər"in sammitlərində MBD dövləri arasında yeganə olaraq iştirakı Türkiyə-Azərbaycan dostluğunun ifadəsi olmaqla respublikamızın möhkəmlənən beynəlxalq nüfuzu və dinamik inkişafı sayəsində mümkün olmuşdur.

2015-ci ilin acı mənzərələri kimi damarlarda qanı donduran Şərq ölkələrində bəzi dövlətlərin maraqları naminə baş verən qanlı toqquşmalar, nəticədə yaranan miqrant axınına qarşı Avropa dövlətlərinin soyuqqanlı münasibətləri ilə müqayisədə Azərbaycan tolerantlığı bir nümunə kimi yüksək dəyərləndirildi. Yurdlarını tərk etmiş insanlara qarşı zorakılıqlar, fiziki təzyiqlər Avropanın demokratik dəyərələrə "sadiqliyinin" nümunəsi kimi ikrah doğurdu, bizə "demokratiya dərsi keçməyə cəhd göstərən, insan hüquqlarını qoruyanların" iç üzünü göstərdi. Ölkəmiz isə bütün miqrantlara dinindən, milliyyətindən asılı olmayaraq humanist yardımını əsirgəmir.

Beynəlxalq maliyyə-iqtisadi təşkilatların hesabatlarından da aydın görünür ki, son illərdə dünya miqyasında xalqın iradəsinə əsaslanan iqtisadi inkişaf baxımından başqalarına nümunə göstərilən "sabitlik adası" adlandırılan, dünyada seçilən ölkə də elə Azərbaycandır.

Dünya enerji bazarında, beynəlxalq əhəmiyyətli nəqliyyat layihələri sahəsindəki təşəbbüsləri ilə öncüllüyünü qoruyan Azərbaycan üçün 2015-ci il də yaddaqalan olmuşdur. Məhz bu ildə Azərbaycanla Türkiyənin birgə layihəsi olan TANAP qaz kəmərinin təməli qoyuldu. "Cənub" qaz dəhlizi layihəsində təmsil olunan ölkələrin enerji nazirlərinin iştirak etdiyi Məşvərət Şurasının ilk iclasında etiraf olundu ki, Azərbaycan dünya enerji bazarına töhfələr verən və layihələrin şaxələndirilməsində təşəbbüskarlığı ilə fərqələnən, əsas tərəfdaş ölkədir. "Biz neft-qaz siyasətimizi elə aparırıq ki, ölkənin bütün maraqları təmin edilsin və bizim üçün dost, qonşu ölkələrin də maraqları təmin olunsun" söyləyən Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, "Şahdəniz" yatağından çıxarılan böyük həcmdə qaz uzun illər ərzində həm Azərbaycan xalqına, həm də qardaş, dost ölkələrin inkişafına xidmət edəcəkdir.

Prezident cənab İlham Əliyevin praqmatik, uzaqgörən və tam müstəqil siyasəti sayəsində Azərbaycan sözü eşidilən, rəyi nəzərə alınan ölkə kimi dünya dövlətləri arasında öz layiqli yerini, etibarlı tərəfdaş imicini daha da möhkəmləndirmişdir. Azərbaycanın enerji diplomatiyasının növbəti təntənəsi olan mərasimdə çıxış edən Prezident İlham Əliyev TANAP layihələrinin, "Cənub" qaz dəhlizinin həyata keçirilməsi istiqamətində mühüm mərhələ olduğunu vurğulayaraq bildirdi ki, enerji resurslarının şaxələndirilməsi hazırda beynəlxalq təşkilatların əsas arenasında müzakirə olunan məsələdir: "Azərbaycan şaxələndirmədə öz rolunu oynayır. Şaxələndirmə haqqında danışanda biz yalnız marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsini nəzərdə tuturuq. Marşrutların şaxələndirilməsi vacibdir, lakin mənbə eyni olanda vəziyyət çox dəyişmir. Mənbələrin şaxələndirilməsi vacibdir. Bu halda Xəzər dənizində çıxan qaz - Azərbaycan qazı növbəti illər ərzində Avropa istehlakçıları üçün yeganə yeni qaz mənbəyi olacaq." Yəni Azərbaycanın təşəbbüslərindən tranzit, istehlakçı ölkələr də faydalanacaq, Avropanın enerji təhlükəsizliyi təmin ediləcək.

İlk Avropa Oyunları da 2015-ci ilin bəxtinə yazılan uğurlu təqvimlərdən biri kimi yaddaşlarda qaldı. Oyunlara hazırlıq mərhələsində müxtəlif idman obyektlərinin tikilməsi, ölkədə aparılan quruculuq, abadlıq işləri, salınan park və xiyabanlar, təmir olunan geniş magistrallar, yollar paytaxtımıza xüsusi gözəllik və yaraşıq verdi. İdmançıların, qonaqların, iştirakçıların qeyd etdiyi kimi, birliyin, həmrəyliyin və dostluğun nümunəsi olan Birinci Avropa Oyunlarına olimpiya səviyyəsində hazırlaşan Azərbaycan üzərinə düşən şərəfli missiyanı ləyaqətlə yerinə yetirdi. Avropada da etiraf olundu ki, bu Oyunların standartları Azərbaycanda yazıldı.

Alovunu qədim Atəşgah məbədindən götürən I Avropa Oyunlarına "Qoy, güclü qalib gəlsin" sözləri ilə xeyir-dua verən, "Əlbəttə ki, bu böyük məsuliyyət bizim üzərimizdə idi. Avropa Oyunlarının standartları o vaxt mövcud deyildi. Əslində, Oyunların standartlarını biz birlikdə Azərbaycanda yaratdıq və bu, ən yüksək standartlardır" söyləyən Prezident cənab İlham Əliyev ölkəmizə 21 qızıl olmaqla 56 medal qazandıran idmançılarımızla fəxr etdiyini bildirdi.

Yarışlarda iştirak edən qonaqların, yarışan idmançıların heç vaxt unutmayacağı I Avropa Oyunlarının açılış və bağlanış mərasimləri əsrarəngiz gözəlliyi, cəlbediciliyi, həyat qaynağı olan varlıqları təcəssüm etdirən səhnələri ilə bütün dünyanı dolaşdı, uğurlarımıza sevinənləri qürurlandırdı, bədxahlarımızın mənfur niyyətlərini məğlubiyyətə uğratdı.

Daim diqqət mərkəzində olan ordu quruculuğu sahəsində aparılan islahatlar 2015-ci ildə də davam etdirildi. Azərbaycanda Müdafiə Sənaye Nazirliyinin müəssisələrində mindən artıq adda hərbi ləvazimat və avadanlıqların istehsalına diqqətin daha da artırılacağını vurğulayan Prezident, Ali Baş Komandan İlham Əliyev bildirir ki, ordu quruculuğu gələn il də prioritet sahə olaraq qalacaq. Ölkəmizdə beynəlxalq hərbi sərgilərin keçirilməsi, təmas xəttində təxribatlar törədən erməni hərbçilərinin itkiləri ilə nəticələnən düşmən hücumlarının qarşısının alınması Azərbacyan ordusunun gücü və qüdrətinin ifadəsidir.

Prezident cənab İlham Əliyevin əsas çağırışlarından biri iqtisadi islahatların sosial islahatlarla tamamlanmasıdır. Ölkə əhalisinin sösial müdafiəsinin gücləndirilməsi üçün önəmli addımlar atılır, aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması üçün güzəştlər nəzərdə tutulur. Bunun üçün korrupsiya, rüşvətxorluq və inhisarçılıq hallarına qarşı mübarizənin davamlı aparılmasını tələb edən cənab İlham Əliyev eyni zamanda ictimai nəzarətin gücləndirilməsini də başlıca məsələ kimi qarşıya qoyur. Yola salınan ildə də əhalinin sosial təminatının yaxşılaşdırılması istiqamətində sistemli, köklü islahatlar aparılmışdır. Belə ki, xarici ölkələrdən gətirilən dərman preparatlarının qiymətləri Tarif Şurası tərəfindən yenidən tənzimlənmiş, minlərlə dərmanın qiymətləri 2-3 dəfədən çox ucuşlaşdırılmışdır. Eyni islahatlar avia biletlərin satışında, əhalinin istirahətinin səmərəli təşkili üçün otellərin qiymətlərinin tənzimlənməsində də həyata keçirilmişdir. ÜDM-də 70 faiz payı olan sahibkarlığın inkişafı üçün dövlət dəstəyinin artırılması, hüquqi bazanın gücləndirilməsi, biznes mühitinin şəffaflaşdırılması üçün "məmur-vətəndaş" münasibətlərinə ədalət prizmasından yanaşılması, mövcud vergidən azadolma və güzəştlər sisteminin yenilənməsi üçün islahatların tətbiqinə başlanılmışdır. Artıq lisenziyaların da Azərbaycan brendi olan "ASAN xidmət" vasitəsilə verilməsi təcrübəsinə başlanılmışdır.

Ölkəmizdə demoqrafik vəziyyətlə bağlı nikbinliyini ifadə edən Prezident İlham Əliyev vurğulayır ki, Azərbaycanda doğulan hər bir körpə gələcəyin vətəndaşı, qurucusudur. Əhalisinin sayı 10 milyona yaxınlaşan Azərbaycanda cari ilin 9 ayında 50 min 965 yeni nikah aktı bağlanmış, 123 min 265 körpə dünyaya göz açmışdır. Gələcəyimiz olan bu körpələrin sağlam böyüməsi, hərtərəfli təmin olunması üçün iqtisadi inkişafın çox sahəli tərəqqisinə nail olmağı hədəf kimi qarşıya qoyan cənab İlham Əliyev haqlı olaraq bildirir ki, Azərbaycanın gücü, qüdrəti, dünyada möhkəmlənən nüfuzu davamlı inkişafımızın əsas istiqamətlərindəndir.

...2016-cı ilin ayaq səsləri duyulmaqdadır. 2015-ci ildə müəyyənləşdirilən hədəflərin bəzilərinin icrası məhz bu ilin qismətinə düşür. İnanırıq ki, 2016-cı il də əlamətdar tarixi hadisələrlə zəngin olacaq, uğurlarımıza şahidlik edəcək. Daim qonaqlı-qaralı olan Azərbaycanın adı daha mötəbər məclislərdə çəkiləcək, müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi edəcək.

Qədəmin mübarək, sayalı olsun, Yeni il. Siyasi cəhətdən sabitliyi ilə fərqlənən ölkəmizə xeyir-bərəkət, bolluq gətir. Arzumuz budur ki, 2016-cı illə vidalaşarkən bu ildəkindən daha mükəmməl nailliyyətlərdən söz açaq. Sabahımıza bu günümüzün gerçəkliklərindən baxan Azərbaycan xalqı əmindir ki, qarşıladığımız ilimiz salnaməmizə həm də sülh ili kimi yazılacaq. Bayrağımız işğal altında qalan torpaqlarımızda da dalğalanacaq.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***